Azerbaijan

Source: Azertac

Retrieved from:
https://azertag.az/xeber/leyla_efendiyeva_azerbaycan_cazi_heqiqeten_unikal_bir_fenomendir___musahibe-4160247 on Jul 3, 2026

# Leyla Əfəndiyeva: Azərbaycan cazı həqiqətən unikal bir fenomendir - MÜSAHİBƏ

- 30.04.2026 [19:24]
- Müəllif – Anara Axundova



Bakı, 30 aprel, AZƏRTAC

*AZƏRTAC-ın müxbiri hər il aprelin 30-da qeyd olunan Beynəlxalq Caz Günü münasibətilə "Bakı Caz Festivalı"nın direktoru Leyla Əfəndiyeva ilə həmsöhbət olub. Leyla Əfəndiyeva Azərbaycan cazının dünyada nə dərəcədə maraq doğurduğu, "Bakı Caz Festivalı"nın əhəmiyyəti və ölkəmizdə cazın inkişafına yönəlmiş yeni layihələr barədə danışıb.*

**— Leyla xanım, Azərbaycan cazı dünyada nə dərəcədə maraq doğurur və onun unikallığı nədədir?**

— Azərbaycan cazı, həqiqətən də, dünyada böyük maraqla qarşılanan unikal bir fenomendir. Bizim kimliyimiz, səsimiz, üslubumuz və ən əsası, görkəmli nümayəndələrimiz var. Geniş qastrol səfərlərinə çıxan və nüfuzlu səhnələrdə çıxış edən musiqiçilərimiz beynəlxalq konfranslara da fəal qatılırlar. Onlar artıq, sadəcə, mahir ifaçı deyil, həm də Azərbaycan musiqi mədəniyyətini qlobal miqyasda təmsil edən nüfuzlu ekspertlər kimi tanınırlar. Bu, şübhəsiz ki, hörmətə və marağa səbəb olur.

- Beynəlxalq Caz Günü qlobal miqyaslı hadisədir. Maraqlıdır, Azərbaycan bu beynəlxalq hərəkatın tərkib hissəsinə necə çevrilib?

- 2011-ci ildə görkəmli caz musiqiçisi Herbi Henkok UNESCO ilə əməkdaşlıq çərçivəsində hazırda bütün dünyada aprelin 30-da qeyd olunan Beynəlxalq Caz Gününün yaradılması təşəbbüsünü irəli sürdü. Azərbaycan demək olar ki, dərhal bu hərəkatın bir hissəsinə çevrildi. Biz bu prosesə çox fəal şəkildə qoşulduq, konsertlər və layihələr keçirməyə, beynəlxalq əlaqələr qurmağa başladıq. Mən, həmçinin "International Jazz Day" saytına müsahibə verdim və orada Azərbaycanda cazın formalaşması və caz-muğam unikal janrı haqqında danışdım. O vaxtdan bəri biz bu günü hər il qeyd edirik və hər il onun miqyası artır. Bu gün Bakıda qeyd olunan Caz Günü artıq təkcə adi bir hadisə deyil, eyni zamanda, şəhərin hər tərəfinə yayılan çoxşaxəli tədbirləri də əhatə edir. Ən əsası isə biz özümüzü həqiqətən böyük, canlı, qlobal caz ailəsinin bir hissəsi hiss edirik.

**— Beynəlxalq Caz Günü Azərbaycanda cazın inkişafına necə təsir göstərib?**

— Son 10-15 ilə nəzər salsaq, əminliklə demək olar ki, çox böyük işlər görülüb. Biz məqsədyönlü şəkildə yeni nəsil musiqiçilərin yetişdirilməsi ilə məşğul olmuşuq. Beynəlxalq Caz Günü bu prosesdə təkanlardan biri olub.

**— Bakı Caz Festivalı bu prosesdə hansı rol oynayır?**

— Bakı Caz Festivalı 20 ildən çoxdur ki, Azərbaycanda cazın inkişafı üçün çalışan böyük, canlı bir platformadır. Biz prinsipial olaraq özümüzü ildə yalnız bir ay ilə məhdudlaşdırmırıq. Bu, davamlı bir işdir — təhsil proqramları, beynəlxalq layihələr, mədəni mübadilə. Məsələn, bu yaxınlarda dünyanın ən böyük caz məkanlarından biri olan Bremendə keçirilən "Jazzahead!" beynəlxalq sərgisindən qayıtdıq. Orada canlı mübadilə baş verir: musiqiçilər, ideyalar, əlaqələr.

**— Ölkədə cazın inkişafına yönəlmiş yeni layihələr varmı?**

— Bəli, bu, bizim üçün çox vacib addımdır. Biz onlayn radio stansiyasının yaradılmasına start veririk. "Baku Jazz Radio" sırf Azərbaycan cazına həsr olunacaq. Əslində, dünyada bir çox caz radio stansiyası var, lakin məhz Azərbaycan cazını xüsusi olaraq dinləyə biləcəyiniz platformalar demək olar ki, yoxdur. Hazırda biz böyük sevgi və diqqətlə məzmun toplayırıq və radio stansiyasını 2026-cı il "Bakı Caz Festivalı" çərçivəsində təqdim etməyi planlaşdırırıq.

**— Cazı çox vaxt xüsusi musiqi forması adlandırırlar. Onun unikallığı nədən ibarətdir?**

— Caz azadlıqdır, bu, burada və indi yaranan musiqidir. Onun ideyası ondan ibarətdir ki, eyni melodiya musiqiçinin ifa etdiyi anda nə hiss etdiyindən asılı olaraq tamamilə fərqli səslənə bilər. Bu, dinləyici üçün də xüsusi təcrübədir: musiqi sabit deyil, hər ifada yenidən yaranır.

**— Caz xüsusi bir dinləyici tələb edirmi?**

— Bəli. Caz diqqət, daxili sükut tələb edir. Xüsusilə söhbət improvizasiyadan getdikdə, burada tam şəkildə iştirak etmək vacibdir. Dinləmək, diqqətli olmaq, danışmamaq, özünə tam qərq olmağa icazə vermək. Və o zaman bu musiqinin bütün dərinliyi və gözəlliyi ortaya çıxır.